# Erməni faşizminin Xocalı qətliamı

***Tarix düşmən qüvvələrin dinc əhaliyə kütləvi divan tutmasının çox nümunəsinə şahiddir: qırmancla, xəncərlə, qılıncla, ən uzağı güllə ilə... Məğlub edilmiş, çarəsiz insanları tabe etmək o qədər də çətin deyil, buna nə güllə lazımdır, nə də mərmi. 10 min nəfərlik bir şəhərin üstünə müasir silahların bütün növləri ilə hücum etmək, qaçıb canını qurtarmaq istəyənləri isə hər yerdə pusquya salıb güllələbaran etmək nümunəsini isə tarixə özünü zavallı kimi qələmə verib, ali bir xalq olduğunu zənn edən erməni yırtıcı toplumu "hədiyyə" etdi. XX yüzilin son onilliyində bu amansız qətliamı ağlını tamamilə itirmiş, təpədən-dırnağadək silahlanmış erməni millətçi faşistləri dünyaya qorxub-çəkinmədən nümayiş etdirdilər.***



Bu müdhiş "insan ovu"nu öz iyrənc və xəyanətlərlə dolu tarixlərinə "zəfər" kimi yazan təcavüzkar Ermənistan ərazisində millətçi dövlət qurduğu Azərbaycanın Xocalı şəhərini 1992-ci ilin 25–26 fevral gecəsində yer üzündən sildi, onun dinc əhalisinə qarşı tarixin ən amansız soyqırımını törətdi. O gecə və sonrakı günlərdə işgəncə ilə qətlə yetirilən yüzlərlə soydaşımızın günahsız şəhidliyinin çoxsaylı şahidləri tarixin ən dəhşətli insan qırğınından keçdilər. Onların hər dəfə söylədikləri Xocalı yaramızın qurumayan qanı timsalındadır.

**O müdhiş gecənin canlı şahidlərindən biri, müəllim Səidə Cəfərovanın dediklərindən:**

– Son günlərdə Xankəndi tərəfdən davamlı hücum cəhdləri olurdu. Bu artıq silahlı quldur dəstələrinin basqıları deyil, qabaqcadan vahimə yaradan geniş hərbi əməliyyatın məşqi idi. Ermənilər xəbər göndərmişdilər ki, fevralın 25-i axşam Xocalını ələ keçirəcəklər. Biz isə Ağdam tərəfdən mühasirənin yarılmasını gözləyirdik. Bakıdan da deyirdilər ki, yerinizdə möhkəm olun, xüsusi əməliyyat hazırlanıb, sizə kömək gələcək. Fevralın 25-i axşamadək gözlədik, gün ərzində Ağdam tərəfdən heç bir əməliyyat keçirilmədi. Sonra telefonlara da cavab vermədilər. Anlamağa başladıq ki, ermənilər bizə divan tutacaq.

Axşama doğru ermənilər Xocalını zirehli texnikadan və toplardan şiddətli atəşə tutmağa başladılar. Adətən, atışma düşəndə qadınlar, yaşlılar, uşaqlar olanqalan zirzəmilərə doluşurdular. Bu dəfə də əlacımız qaçıb dalda yerlərdə gizlənmək oldu. Axşam saat 11 olardı, dedilər ki, ermənilər Xankəndidəki sovet ordusunun bölmələri ilə birləşib ağır texnika ilə şəhərə hücuma keçiblər. Hər tərəfdən tankların gurultusu eşidilir, bizi mühasirəyə alırdılar. Başbilənlər məsləhət gördülər ki, qadınlar, qocalar uşaqları da götürüb meşə ilə Ağdama tərəf getsinlər.

Biz tələsik zirzəmidən çıxıb yanacaqdoldurma məntəqəsinin yanına gəldik. Vəziyyət o qədər gərgin idi ki, əynimizə palto, ayaqqabı geyməyə macal tapmamışdıq. Ermənilərin hücumu getdikcə şiddətlənirdi, şəhərə mərmilər yağır, evlərdən alov qalxırdı. Xeyli adam bir yerə yığışıb meşəyə üz tutduq. Camaat dəstələrlə, necə gəldi, kor-koranə gedirdi. Tərslikdən həmin gün möhkəm şaxta idi. Ayaqqabısız olduğumdan ayaqlarım sırsıra bağlayıb keyləşmişdi. Əllərimi də soyuqdan hiss etmirdim. Şəhərə yaxın birtəhər gəlib Xocalı ilə Ağdamın arasında yerləşən Qarakəndin yaxınlığına çatdıq.

Sən demə, erməni quldur dəstələri bizi burada gözləyirmiş. Onlar alaqaranlıqda dəstəmizi atəşə tutub adamların çoxunu qırdılar. Şumluq olan bu ərazidə daldalanmağa, güllədən gizlənməyə yer yox idi. Sağ qalanlar məcbur olub qarda sürünə-sürünə ərazini keçməyə başladıq. Amma hava işıqlandığı üçün ermənilər bizi görürdülər. Mənimlə bir yerdə olanların bir hissəsi həlak oldu, bir qismi isə yaralandı. Biz Xocalını nisbətən tez tərk etmişdik. Ona görə də alaqaranlıqda sağ qalanlar oldu. Qanımıza susamış erməni dəstələri şəhərdən bir qədər gec çıxanlardan qırdıqlarını qırıb, yaraladıqlarını yaralayıb qalanlarını əsir götürdülər.

O gecə mən də çiynimdən yaralanmışdım, bədənim qan içində idi. Sürünə-sürünə bir xeyli getdikdən sonra yolu tanıyanlar dedilər ki, artıq Ağdamın Şelli kəndinə çatmışıq. Ayağa qalxdıq. Bir az da gələndən sonra gördük ki, Şellidə çoxlu maşın dayanıb. Demə, ermənilərin Xocalıya hücum etdiyi, camaatı qırdığı barədə xəbər Ağdama çatıbmış. Sağ qalan xocalıların hansı istiqamətdən gələ biləcəklərini təxmini bildikləri üçün Ağdam camaatı bura toplaşmışdı. Sağ olsunlar, bütün yaralıları öz maşınlarına mindirib Ağdam mərkəzi xəstəxanasına çatdırdılar.

Bütün həkimlər artıq işdə idilər. Bizi palatalara yerləşdirdilər. Kimisini əməliyyat etdilər, kimisini də təcili Bakıya yola saldılar. Gecə ikən ermənilər artilleriya ilə Ağdamı da atəşə tutmuşdular ki, ordan bizə nəsə bir kömək olmasın. Mərmilərdən biri düz xəstəxanaya düşmüşü. Məni və bir neçə yaralını həkimlər öz maşınları ilə gətirib qatara mindirdilər. Ordan da bizi Bakıya yola saldılar. Bakıda 15 gün xəstəxanada müalicə aldıqdan sonra Pirşağıda yerləşdik.

**Məhəmməd Orucov, Xocalıdan məcburi köçkün:**

– Şəhərə hücum başlananda 16 yaşlı oğlum Xaqani evə girib məni, qızlarım Leylanı və Aybənizi, 2 yaşlı nəvələrim Fuadı və Muradı da götürüb meşəyə qaçırtdı. Əmimdən xəbərimiz yox idi. 2 gün meşədə qarın-çovğunun içində qalandan sonra ermənilər bizi tutub Pircamal kəndinə apardılar. Hamımızı tövləyə saldılar. Bura girov götürülmüş xocalılılarla dolu idi. Əmimi də burada gördüm. Gözlərimiz qarşısında əmimi və oğlumu möhkəm döydülər. Sonra faşistlər əsirlər arasında qızları seçib apardılar. Onların çığırtıları, nalələrini eşitmək ölümdən betər idi.

Tərpənənimizi döyür, atəşə tuturdular. Heç ən insafsız ovçu da heyvanlarla bu qəddərlıqla davranmır. Həyat yoldaşımı da bir neçə nəfərlə Əsgərana aparıb güllələdilər. Bundan sonra məni buraxdılar, qızlarımı, oğlumu və nəvələrimi isə əsir saxladılar. Əsirlərin xeyli hissəsini işgəncə ilə, əylənə-əylənə öldürmüş, yerdə qalanları şil-küt etmişdilər. Dünyaya özünü zavallı, incidilən xalq kimi qələmə verən ermənilərin siması, bax, budur.

**8 gün erməni əsirliyində qalmış Dürdanə Ağayevanın dedikləri də tükürpədicidir:**

– Mən o zaman Xocalı Rabitə Qovşağında telefonçu işləyirdim. Bu işə 1989-cu ildə təyin olunmuşdum. Facia baş verənə qədər sakinlərin, demək olar ki, hamısı şəhərdə idi. Çünki hamı elə bilirdi ki, Ağdamdan kömək gələcək, düşmən tezliklə susdurulacaq və geri oturdulacaq. Fevralın 25-də axşamdan qızğın döyüşlər gedirdi. Ona görə də heç kim yatmamışdı. Topların, tankların səsindən qulaq tutulurdu. Gecəyə doğru atəş səsləri daha kəskinləşdi və şəhər güllələbaran edilməyə başladı.

Son günlər Bakı, Ağdam, Şuşa istiqamətində yeganə əlaqəmiz telefon və ratsiya ilə mümkün olmuşdu. Gündə bir neçə dəfə, elə olurdu ki, 10–15 dəfə Bakıdan, Ağdamdan, Şuşadan zəng edirdilər, xocalılara təskinlik verirdilər. Həmin gecə də, yəni fevralın 25-də də zəng edib camaata təskinlik verdilər, üstəlik, Əsgəran yolunun, nəyin bahasına olur-olsun, açılacağını deyirdilər. Amma bunlar hamısı söz olaraq qaldı...

Gecəyarıyadək evlərin zirzəmilərində gizlənməli olduq. Yuxarıdan gələn səslərdən anlayırdıq ki, tanklarla, toplarla evlərimizi dağıdırlar. Az keçməmiş xəbər gətirdilər ki, artıq düşmən Xocalı aeroportunu da işğal edib. Aeroport mühasirədə qalmış xocalıların yeganə çıxış yolu idi. Bu xəbərdən sonra zirzəmidə qalmağın mənasız olduğunu başa düşdük. Ona görə də saxlandığımız yerdən çıxıb şəhərdən uzaqlaşmağa məcbur olduq. Təxminən, gecə saat 1-2 olardı. Hamı şəhəri tərk edirdi. Naəlac qalmış insanlar qocalı, qadınlı, uşaqlı pərən-pərən düşdülər. Az sayda döyüşçülərimiz döyüşə-döyüşə bizi meşəyədək müşayiət edib geri döndülər.

Qarlı, şaxtalı qış gecəsində üzü Qarqar çayına tərəf getdik. Hər tərəfdə atışma getdiyindən və hər yeri qaniçən ermənilər kəsdiyinə görə çayın o tayondakı meşəyə girməli idik. Bunun üçün də buz kimi suyu olan çayı keçməli olduq. Sərt şaxta hamılıqla suda islanmış adamları dondururdu. Bir çoxları buna görə bir qədər getdikdən sonra yollarına davam edə bilmədilər. Çayı keçdikdən sonra qarlı dağları aşıb Ağdama getmək istəyirdik. Dağın başına qalxanda çevrilib bir anlıq Xocalıya baxdıq. Xocalı nəhəng bir tonqal kimi yanırdı.

Qarlı, buzlu, sürüşkən cığırlarla, sıldırımlı, daş-kəsəkli dağ ətəyi ilə getməyə məcbur idik. Çünki çay boyunca hərəkət edə bilməzdik. Əsgəran yolu düşmən tərəfdən bağlanmışdı. Yeganə yol dağlardan keçirdi. Elə bilirdik ki, o tərəfdə düşmən görməyəcəyik. Lakin qansız erməni dəstələri hər yerdə bizə tələ qurmuşdu. Bizim getdiyimiz dəstə çox böyük idi. Onların arasında yaralılar da var idi. Amma havanın soyuqluğu və çayı keçərkən islanmağımız hamını şiddətlə dondururdu. Ayaqlarımızı hiss etmirdik, elə titrəyirdik ki, bir-birinə dəyən dişlərimizin səsi açıq-aydın eşidilirdi.

Nə qədər ehtiyatla, sakitcə getsək də, qayalardan, uçurumlardan düşüb dünyasını dəyişənlər də olurdu. Hava işıqlaşmağa başlayanda biz Qaraqaya adlanan yerə yenicə çatmışdıq. Bir də gördük ki, ermənilər bizə tərəf atəş açmağa başladılar. Camaat pərən-pərən düşdü, hərə vahimə içərisində bir tərəfə qaçmağa başladı. Biz də sürünə-sürünə ərazidən uzaqlaşmaq istədik. Birdən ayağımda istilik hiss etdim. Baxanda gördüm ki, məni də güllə ilə vurublar, yaralanmışam.

Süründükcə huşumu itirir, ayılıb görürdüm ki, camaatdan geri qalmışam. Yıxıla-dura, bir qədər getmişdik ki. yenidən atəş açdılar, hamilə bir qadını güllə ilə qarnından vurdular. Qışqırıqlar başladı. Sən demə, burada da ermənilər bizi görürmüşlər. Bir qədər sonra qardaşımı da güllə ilə yaraladılar. Beləcə silahlı quldurlar bizi əhatəyə alıb dedilər ki, sizi öldürməyəcəyik, bizə sağ lazımsız. Bizi əsir alıb Əsgərana gətirdilər. Burada erməni qadınları bizi daşa basmağa başladılar. Ətrafda çoxlu silahlı adam, zirehli maşınlar, toplar, tanklar, zirehli mşınlar gördüm. Dəhşətə gəlmişdim, bu qədər silaha qarşı Xocalı cəmi 1 ZTR və 1 PDM ilə "qorunurmuş".

Bizi yanğınsöndürmə binasının qarajlarına saldılar. Bura gələndə gördüm ki, Xocalı sakinlərinin böyük bir hissəsini girov götürüblər. Ətrafım tanıdığım insanlarla dolu idi. Sonra bizi ayırmağa başladılar, qadınları bir, kişiləri isə ayrı kameraya yığdılar. Təxminən, 40 qadın qalmışdıq.

Quldurbaşılar gəlib başladılar qadınların qiymətli əşyalarını yığmağa. Kimin üstündə qızılı, gümüşü var idisə, hamısını aldılar. Çiblərimizi, çantalarımızı yoxladılar. Nə var idisə, hamısını vedrəyə yığdılar. Mənim çantamdan isə güllələr çıxdı. Buna görə də onları başıma çırpıb məni öldürməklə hədələdilər.

Axşam ermənilər gəlib uşaqlı qadınların hamısını apardılar. Sonradan eşitdik ki, onlara xeyli işgəncə verəndən sonra bizimkilərlə benzinə dəyişiblər. Kamerada 6–7 qadın qalmışdı. Şəhərə yaxın içəri girdilər bizi də aparmağa başladılar. Mən qapının arxasında gizləndim, içəri çox qaranlıq olduğundan məni görmədilər. Hamını aparandan sonra tək qaldım, hava tam işıqlaşandan sonra gördüm ki, palçığın içində oturmuşam. Kameradan necə qaçmışam, hara qaçmışam özüm də bilmədim...



*Hazırladı: Tahir AYDINOĞLU,*
*"Xalq qəzeti"*